BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№3 Humanitar elmlər seriyası 2010*

# XX ƏSRİN SONU – XXI ƏSRİN ƏVVƏLLƏRİNDƏ MİSİR – İSRAİL MÜNASİBƏTLƏRİ (FƏLƏSTİN PROBLEMİ KONTEKSTİNDƏ)

**A.A.GÜLƏLİYEVA**

***Bakı Dövlət Universiteti***

***afet.gul.@bax.az.***

*Misir Ərəb Respublikası Yaxın Şərqdə İsraillə sülh müqaviləsi olan ərəb dövlətlərindən biridir. Misir-İsrail münasibətlərinin səviyyəsilə bir çox hallarda ərəb-İsrail münasibətlərinin xarakteri müəyyənləşir. Müasir mərhələdə Misir-İsrail münasibətləri də Fələstin–İsrail münaqişəsinin vəziyyətindən asılıdır. Bu bölgədə iqtisadiyyat siyasi münasibətlərin səviyyəsi üçün tənzimləyici faktor rolunu oynaya bilmir. Məqalədə Misir–İsrail münasibətləri qeyd olunan aspektlərdən araşdırılır.*

Müasir dövrdə Yaxın Şərqdə beynəlxalq münasibətlər kontekstində Misir-İsrail münasibətləri ümumilikdə mühüm əhəmiyyətə malikdir. Yaxın Şərq siyasətində bu iki dövlət arasında münasibətlərin ara-sıra xarakterini dəyişməsi nəinki İsrail-ərəb münasibətlərinə, həm də ərəb dünyasında qüvvələr balansına təsir etməkdədir. İsrail dövləti yaranan gündən Misir ona qarşı başlanmış bütün müharibələrdə 1973-cü ilə qədər iştirak etmişdir. Buna baxmayaraq, Misir silahlı yolla nə özünün itirdiyi torpaqları qaytarmış, nə də Fələstin problemini həll edə bilmişdir. Yaranmış şəraitdə Misir Ərəb Respublikasının prezidenti Ənvər Sədat xarici siyasət kursunda ciddi dönüş edərək “sülh əvəzinə torpaq” şüarı ilə İsrail ilə danışıqlara başlamağa razı olduğunu bildirmişdi. Məlum olduğu kimi, bu danışıqlar 1979-cu ildə sülh müqaviləsinin imzalanması ilə başa çatdı və nəticədə Misir 10 il ərəb dünyasından təcrid edildi. 1981-ci ildə H.Mübarək hakimiyyətə gələn zaman Kemp-Devid danışıqlarından imtina etdiyini deməsə də, xarici siyasəti ərəb dövlətləri ilə münasibətlərin yaxşılaşdırılmasına yönəltdi, İsrail ilə münasibətlərində isə nisbətən məcafə saxlamağa başladı.

Misir “sülh əvəzinə torpaq” şüarı irəli sürsə də, İsrail uzun müddət Fələstin Azadlıq Hərəkatının (FAT) nümayəndələri ilə danışıqlardan umtina edirdi. Halbuki, nəinki Qahirə, habelə bütün ərəb dünyası FAT-ı Fələstin xalqının yeganə hüquqi təmsilçisi hesab edirdilər. 1993-1995-ci illərdə israillilərlə fələstinlilər arasında bir sıra razılaşmaların imzalanması münaqişənin qısa müddətdə nizamlanacağı haqda fikirlər söyləməyə əsas verirdi. 1996-cı ildə İsraildə sağçıların hakimiyyətə gəlməsi, Fələstin Milli Administrasiyası ilə ziddiyyətli münasibətlərə başlaması, nəinki bu müqavilələrin reallaşmasını, hətta ümumilikdə Yaxın Şərq probleminin nizamlanmasını yenidən sual altına qoydu. 2000-ci il 29 sentyabrda A.Şaronun nümayişkaranə şəkildə əl-Əqsa məscidi ərazisindəki Mədəd dağına getməsi ilə hərbi əməliyyatlar yenidən qızışır və II Fələstin “intifada” (dirəniş) hərəkatı da başlayır (1, 294 s.). Misir İsrail hökumətini bu hərəkətlərinə görə təqsirli hesab edir və 2000-ci ilin noyabrında İsraildəki səfirini geri çağırır.

Müasir dövrdə Misir-İsrail münasibətləri məhz Fələstin-İsrail münaqişəsinin

hansı səviyyədə olmasından asılıdır. Misir bu münaqişənin nizamlanmasında vasitəçi olmağa çalışır, "Yol xəritəsi"ni dəstəklədiyini bildirir, gələcəkdə sülh danışıqları üçün baza yaratmaq məqsədilə fələstinlilərlə israillilər arasında danışıqlara başlamaqda vasitəçi kimi çıxış edir. Amma Qahirənin bu cəhdləri Ariel Şaron kabinetinin fələstinlilərə münasibətdə güc siyasəti ilə qarşılaşmalı olur ki, bu da Qahirənin səylərinin səmərəsizliyini şərtləndirirdi.

2003-cü ilin oktyabrında Misirin Şərm əş-Şeyx şəhərində ABŞ dövlət katibi Kolen Pauellə görüşü zamanı H.Mübarək ABŞ rəhbərliyini İsraili "Yol xəritəsi"ndən irəli gələn öhdəlikləri yerinə yetirmək üçün məcbur etməyə çağırmışdı. Çünki Misir hələ də əmindir ki, məhz A.Şaron sülh danışıqlarına kömək edə biləcək yeganə insandır, təbii ki, əgər o, bunu istəsə. Qahirə ümid edirdi ki, ABŞ "Yol xəritəsi"ndən irəli gələn öhdəlikləri yerinə yetirmək üçün İsrailə təzyiq göstərəcəkdir. 2003-cü ilin iyununda Misir rəsmi dairələri bildirdilər ki, İsrail sülhə doğru addım atdığını təcrübədə göstərməyənə qədər səfir İsrailə qaytarılmayacaqdır. Rəsmi Misirin fikrinə görə, İsrail öz hərəkətlərilə fələstinlilər ilə sülh istəmədiklərini nümayiş etdirirlər. MƏR xarici işlər naziri Əhməd Mahir bildirmişdi ki, "İsrail dünya ictimaiyyəti tərəfindən dəstəklənən "Yol xəritəsi"nə uyğun olaraq Fələstin-İsrail münaqişəsinin nizamlanması yolunda addım atdıqdan sora səfirlər Tel-Əvivə qayıdacaqdır" (2, 48).

Hazırda Misirin Suriya və İranla münasibətlərinin yaxşılaşdığı bir zamanda Qahirə İsrailin Dəməşq və Tehranın ünvanına söylədiyi təhdidlərə çox həssaslıqla yanaşır. Ərəb dövlətləri arasında inteqrasiyada böyük səylər göstərən Qahirə 2003-cü il 5 oktyabrda Suriya ərazisində yerləşən fələstin düşərgələrinə İsrailin hücumlarına qarçı ciddi reaksiya verdi. Suriya ərəb dünyasının böyük dövlətlərindəndir və ona qarşı yönəlmiş hər-hansı hədəni Misir rəhbərliyi, ziyalıları və ictimaiyyəti tərəfindən onun mövqeyinin zəiflədilməsinə cəhd kimi qiymətləndirir. İsrail Fələstin hərbi-siyasi birləşmələrinin təzyiqindən qurtarmaq üçün qonşu ərəb dövlətlərinə yerləşmiş fələstin qaçqınlarının nəyin bahasına olursa-olsun ya uzaqlaşdırılmasına, ya da oturaqlaşmasına çalışırdı ki, bu da praktiki olaraq mümkünsüzdür.

XX əsrin sonu – XXI əsrin əvvəllərində MƏR-də yeni qaz ehtiyatlarının istismarına başlanması Misir iqtisadiyyatı üçün yeni yollar açdı. Belə ki, istehsal olunan qazın Yaxın və Orta Şərqə, eləcə də Avropaya ixracı yeni layihələrin reallaşması üçün imkanlar yaradırdı. Həmin qazın yaxın ölkələrə nəqli İsrail və Fələstin ərazisindən keçəcək boru kəməri ilə mümkün ola bilərdi. XX əsrin 90-cı illərinin ikinci yarısında İsraillə Fələstin arasında bəzi razılaşmaların imzalanması regionda hər hansı bir iqtisadi layihənin mümkünlüyü, eləcə də İsrail-Misir münasibətlərinin yenidən yaxşılaşacağı haqda danışmağa imkan verirdi. Çünki regionun münaqişəli vəziyyətdə olması hər hansı layihəni əhəmiyyətsiz edirdi. Təsadüfi deyildi ki, İsrail qısa müddətə də olsa, bu faktı nəzərə almaq məcburiyyətində qalmışdı. Ərəb-İsrail münaqişəsinin 2004-2005-ci illər dövrü hadisə və proseslərin təhlili göstərir ki, İsrail seçim qarşısında qalmışdı.

Ekspertlərin rəyinə görə Misir-İsrail iqtisadi münasibətləri keçən yüzilliyin 70-90-cı illəri arasında yüksək səviyyəyə çatmalı idi. İkinci "intifada" başlayana qədər Misir neftinin İsrailə daşınması sabit olaraq davam edirdi və Misirin İsraildə qaz bazarına da sahib olmaq üçün (baxmayaraq ki, həmin bazarda əsas tərəfdaş Rusiyadır) böyük imkanları var idi (3.25). 1997-ci ildə neft emalı üzrə Misir-İsrail kompaniyası fəaliyyətə başlayır. Bu layihə Misir neftini emal etmək və müxtəlif yerlərə- birinci növbədə İsrailə ixrac etməkdə imkanlar yaradır. 2001-ci ilin iyulunda İsrailin Merxav

kompaniyası aksiyalarının 20%-ni Misirə satır və layihə artıq Misirdaxili hesab olunur. Bundan sonra, Misir satış üçün ərəb ölkələri arasında bazar axtarmağa başlayır.

Misir hökuməti xarici sərmayəçilərlə birlikdə Misir qazının Fələstin və İsrailə daşınması üçün qaz kəmərinin çəkilişi ilə əlaqədar planlar hazırlamağa başladılar. Uzunluğu 460 km olacaq həmin boru kəməri Port-Səiddən (Misir) İsrailin Aralıq dənizi sahillərində yerləşən Xayfa şəhərinə qədər uzanmalı, oradan isə 40 km əlavə olaraq Fələstinin Qəzza bölgəsinə çəkilməli idi. Artıq 1998-ci ildə qaz kəmərinin çəkilişilə bağlı qərarın qəbul olunduğu vaxt İzraildə Benyamin Natanyahinin başçılığı ilə sağların hakimiyyətə gəlməsi və onun ərəb ölkələrinə qarşı sərt xarici siyasət kursunun başlanması ilə planın reallaşması məlum olmayan müddətə arxa plana keçdi (4, 58). Heç bir karbohidrogen ehtiyatlarına sahib olmayan İsrailin sərhəd qonşusu olan Misirin qaz ehtiyatlarından istifadə etmək üçün gözəl imkanları açılmışdı. Onu da yaddan çıxarmaq olmaz ki, Misir İsraillə sülh müqaviləsi olan iki ərəb dövlətindən biridir və belə bir qonşu ilə iqtisadi əlaqələri genişləndirməkdə maraqlı olmalı idi. 2000-ci ilin sentyabrında Fələstin qiyamlarının başlanması, 2001-ci ilin fevralında İsraildə Ariel Şaronun seçkilərdə qalib gəlməsi və rəhbərlik etdiyi hökumətin fələstinlilərə qarşı sərt mövqe nümayiş etdirməsi Misir – İsrail münasibətlərinin pisləşməsinə səbəb oldu.

2000-ci ilin oktyabrında ƏDL-in Qahirə sammitində qeyd olunurdu ki, "sülh prosesinin müxtəlif istiqamətlərdə təcrid olunması, çoxtərəfli danışıqların dayandırılmasına səbəb oldu". Buna görə də, dövlətlər qərara gəlir ki, "çoxtərəfli danışıqların yenidın başlaması üçün heç bir fəaliyyət göstərilməsin və İsrailin iştirakı ilə regional iqtisadi əməkdaşlığa son qoyulsun". Hadisələrin belə inkişafı İsraillə münasibətlərin dondurulması haqda qərar qəbul etməklə nəticələndi. Belə demək olar ki, müstəqil dövlətlərini yaratmaq yolunda uzun müddət fələstinliləri dəstəkləyən Misirin atdığı bu addım tamamilə xarici siyasət məntiqinə uyğundur. Baxmayaraq ki, Misir böyük valyuta gəlirindən məhrum olurdu, lakin ərəb dövlətlərinin götürdüyü siyasi kurs birbaşa İsrailin maraqlarını vurduğu üçün, yenidən Yaxın Şərqə ABŞ rəsmilərinin qısamüddətli səfərləri başlandı. Səfərlərin coğrafi əhatəsi bir tərəfdən regionda gedən geosiyasi mübarizənin konturlarını, digər tərəfdən isə problemə münasibətdə həmrəyliyini əks etdirən ərəb dövlətlərinin sıralanmasını aydın şəkildə göstərirdi. Reallaşmasında ABŞ-ın özünün də maraqlı olduğu iqtisadi layihələr İsrailin həyati maraqları ilə səsləşirdi. Təsadüfi deyildi ki, ABŞ Dövlət Katibinin regiona səfərində əsas hədəf Səudiyyə Ərəbistanı və Misir seçilmişdi.

Beləliklə, Misirdən Yaxın Şərqə, sonra da Avropaya uzanacaq qaz kəmərinə İsrailin qoşulması yalnız Fələstin-İsrail münaqişəsi tam və ədalətli həllini tapdıqdan və ərəb-Israil münasibətləri normallaşdıqdan sonra mümkündür. Təəssüflər olsun ki, münaqişə ilə bağlı bu gün baş verən hadisələr yaxın gələcəkdə regionda böyük masştablı iqtisadi layihələrin reallaşacağı haqda danışmağa imkan yaratmır.

Misir Israil-Fələstin münaqişəsinin tez bir zamanda nizamlanması və hərbi qarşıdurmanın dayandırılması haqda razılığın imzalanmasında maraqlı idı, çünki bu həm regionda əməkdaşlığın genişlənməsinə imkanlar açar, həm də bir ərəb dövləti olaraq İsraillə ilk sülh müqaviləsi bağlayan Misirin xarici siyasət kursunun düzgün olduğu haqda fikirlər formalaşdırar və Misirin regionda çəkisini artırardı.

Fələstin-İsrail münaqişəsi, ərəb-İsrail münasibətlərinin nizamlanmaması Misir-İsrail münasibətlərinə böyük təsir etməklə yanaşı, həm də bu münasibətlərin xarakterini müəyyənləşdirir. Rəsmi olaraq Qahirə İsraillə münasibətlərini müəyyənləşdirən zaman mütləq ölkənin ictimai rəyini nəzərə almalı olur. Misir ictimaiyyətinin İsrailin

baş naziri Ariel Şarona münasibəti kifayət qədər kəskin idi. Hətta nəinki Misirdə, bütün ərəb dünyasında İsraili son 50 ildə fələstinlilərə qarşı törədilmiş qırğınlarda əsas günahkar hesab edirlər.

Ərəb dünyasında narazılıqlara baxmayaraq Qahirə İsrailə münasibətdə təmkin və dözümlülük nümayiş etdirirdi. Çünki rəsmi Qahirə başa düşür ki, A.Şaronun ərəb dünyasında nüfuzunun hansı səviyyədə olmasına baxmayaraq istər Misir, istərsə də digər vasitəçilər onunla danışıqlar aparmaq məcburiyyətindədirlər. Misir- İsrail münasibətlərinin "soyuq sülh" vəziyyətində olmasına baxmayaraq istər ikitərəfli məsələləri, istərsə də ərəb dövlətlərilə İsrail arasında yaranan mübahisələri Kemp Deviddən irəli gələn prinsiplər əsasında nizamlanmasına üstünlük verirdi.

H.Mübarək hücuma məruz qalan fələstinliləri müdafiə etmək üçün ölkəsini hərbi əməliyyatlara qatılmaqdan imtina edir. Çünki H.Mübarək dəfələrlə qeyd edir ki, "müharibə yolu ilə heç bir müsbət nəticə əldə etmək mümkün deyil, yalnız yeni nifrət toxumları əkmək olar. Biz müharibə istəmirik, belə ki, o bizim milli maraqlarımıza cavab vermir." Misir liderinin bu sözləri bir daha göstərir ki, MƏR-in xarici siyasətində sülh "strateji seçim" olaraq qalmaqdadır. Sinay yarımadasının azad olunmasının 20 illik yubileyində çıxış edən zaman H.Mübarək demişdir ki, "fələstinlilərin haqlı müqavimətinə qarşı İsrailin dövlət terrorizmi nəinki fələstinlilərdə, həm də 300 milyonluq ərəblərdə də qisas hissələri oyadacaqdır" (2,51).

A.Şaron hökumətinə inamsızlığa baxmayaraq Misir İsrailin yüksək səviyyəli rəsmi dairələrilə münaqişənini nizamlanması ətrafında danışıqları davam etdirir. 2003-cü ildə MƏR-in xarici işlər naziri Əhməd Mahir İsrailə səfəri zamanı dövlətinin mövqeyindən çıxış edərək bildirmişdir ki, sülh həm İsrail, həm də fələstin tərəfinin maraqlarına cavab verməlidir və Misir regionda sülhün təmin olunmasına yenə də vasitəçilik edəcək. A.Şaron da öz növbəsində bu məsələdə "Yol xəritəsi"ndən irəli gələn prinsiplərə sadiq qaldığını bildirir.

Beləliklə, demək olar ki, XXI əsrdə Misirlə İsrail arasında münasibətlər "sərin" olaraq qalmaqdadır, lakin tərəflər bir-birlərinə olan antipatiyanı açıq nümayiş etdirməməklə ikitərəfli əlaqələri və bölgəyə aid olan problemləri danışıqlar masası arxasında həll etməyə çalışırlar. İsrailin ərəb dunyasına qarşı hərbi hədələrinə baxmayaraq Misir rəsmiləri dəfələrlə bildirmişlər ki, Misir ordusu dövlət sərhədlərini qorumaq üçün kifayət qərəd yüksək səviyyədədir.

"Sülh istəyirsənsə, müharibəyə hazır ol". Təəssüflər olsun ki, beynəlxalq münasibətlər nəzəriyyəsində dəfələrlə müzakirə olunan bu məsələ Yaxın Şərq bölgəsində öz həqiqi təsdiqini tapir. İki dövlət arsında müqaviləyə, rəsmi səviyyədə əlaqələrə, hərbi münaqişənin mümkünlük ehtimalına baxmayaraq, müasir dövrdə İsrail məhz Misirə regionda başlıca rəqib kimi baxır. Məhz bu səbəbdən Misir öz hərbi qüvvələrinin yeniləşdirilməsinə və müasirləşdirilməsinə çalışır. MƏR-in müdafiə naziri H.Xantaui demişdir ki, Misir ordusu həm dostlarını, həm də düşmənlərini öz milli təhlükəsizliyini qorumağa hazır olduğuna inandırmalıdır (5, 18).

Regionda yerləşən bütün ərəb dövlətləri kimi rəsmi Qahirə də İsrailin nüvə silahına sahib olmasından (ekspertlərin bildirdiyinə görə, İsrailin 200 nüvə başlığı və raketləri uzaq məsafələrə daşımaq üçün vasitələri var) narahatlıq keçirdiyini gizlətmir. (6, 203). Misir nüvə silahına sahib olmağa can atmır və İsrailin nüvə silahına hücum deyil, çəkindirmə vasitəsi kimi baxır. Bir sıra mütəxəssislərin söylədiyinə görə, İsrailin bu bölgədə nüvə silahından istifadə etməsi qeyri-mümkündür. Çünki nüvə bombası atılacağı təqdirdə İsrail ərəb dövlətlərindən az ziyan çəkməyəcəkdir. Misir

Nüvə silahının yayılmamasına dair müqaviləni imzalamış və bu gün də Yaxın Şərqin kütləvi qırğın sılahından azad zonaya çevrilməsi təklifləri̇lə çıxış edir. Liviya 2003-cü ilin dekabrında kütləvi qırğın silahından imtina edərək Nüvə silahının yayılmamasına dair müqaviləni imzalayan zaman Misir İsraili də eyni müqaviləyə qoşulmağa çağırmışdı.

Qərb dövlətləri tərəfindən İsrailə böyük hərbi yardımların göstərilməsinə Misir bölgəyə hədə kimi baxır və hesab edir ki, bu İsraillə sərhəd dövlətləri sürətlə silahlanmaya, nüvə və kimyəvi silahlar əldə etməyə can atmağa sövq edər. Buna baxmayaraq, Misir və İsrail arasında yaxın gələcəkdə hərbi toqquşma mümkün deyil. Həm ikitərəfli münasibətlər, həm də hər iki dövlət arasında 25 ilə yaxın ABŞ-in vasitəçilik missiyası da bunu deməyə əsas verir. Misir də, İsrail də ABŞ-dan böyük maliyyə yardımı alırlar. Misir təmənnasız ABŞ yardımlarına görə İsraildən sonra ikinci yeri tutur.

Umumiyyətlə, hadisələrin gedişı onu deməyə əsas verir ki, yaxın gələcəkdə Misir-İsrail münasibətlərində "istiləşmə"nin yaranması böyük sual altındadır. Bu gün Yaxın Şərqdə azad iqtisadi zonaların yaradılması planları səslənir. Nəzəri olaraq coğrafi mövqeyinə görə region müasir iqtisadi qloballaşmada aparıcı rol oynaya bilər. Bunu 80-ci illərin ortalarına qədər regionun topladığı tarixi təcrübə də təsdiqləyir.

## ƏDƏBİYYAT


1. Rafiq bəy İsmayıl, Nərgiz Axundova, Aida Bağırova. Asiya və Afrika ölkələrinin çağdaş tarixi (1945-ci ildən sonrakı dövr). 2 kitabda. II kitab (Güney-Batı Asiya və Quzey Afrika ölkələri): Ali məktəblər üçün dərslik. Bakı: Adiloğlu, 2004, 656s.
2. Арабо-израильский конфликт: старые проблемы и новые планы. М.: Наука, 2003. 65 стр.
3. Сатановский Е.Я. Израиль в современной мировой политике: вероятные стратегические противники и стратегические партнеры. М.: Институт изучения Израиля и Ближнего Востока, 2001, 108 с.
4. Бондаренко С.В. Нефтегазовая отрасль Алжира и Египта в конце XX – начале XXI вв. // Ближний Восток и современность. Вып. 10. М.: ИИИБВ, 2001, с. 50-59.
5. Юрченко В.П. Армия и власть в Египте // Армия и власть на Ближнем Востоке. М.: ИИИБВ, 2002, с.
6. Ежегодник СИПРИ 2002. Вооружения, разоружение и международная безопасность. М.: Наука, 2003, 690 с.
7. Кальвокоресси Питер. Мировая политика после 1945 года. В 2-х т, Т I, М.: Просвещение, 2000, 588 стр.


## ЕГИПЕТСКО-ИЗРАИЛЬСКИЕ ОТНОШЕНИЯ В КОНЦЕ XX НАЧАЛЕ XXI ВЕКОВ (В КОНТЕКСТЕ ПАЛЕСТИНСКОЙ ПРОБЛЕМЫ)


**А.А.ГЮЛЬАЛИЕВА**


## РЕЗЮМЕ


Арабская Республика Египет - одна из стран на Ближнем Востоке, которая заключила мирный договор с Израилем. Уровень египетско-израильских отношений во многих случаях определяет характер арабо-израильских отношений. На современном этапе египетско-израильские отношения зависят от состояния палестино-израильского конфликта. В этом регионе экономика не играет роль балансирующего фактора для уровня политических отношений.

В статье исследуется в указанных аспектах египетско-израильские отношения.

# THE EGYPT-ISRAEL RELATIONS IN LATE XX-EARLY XXI CENTURIES (IN THE CONTEXT OF THE PALESTINIAN PROBLEM)

**A.A.GULALIYEVA**

## SUMMARY

The Arabian Republic of Egypt is one of the countries in the Near East which concluded the peace treaty with Israel. The level of the Egypt-Israel relations in many cases is defined by the character of the Arabian-Israel relations. At the present stage, the Egypt-Israel relations depend on the position of the Palestine-Israel conflict. In this region, the economy cannot play the role of the balancing factor for the level of political relations. The article investigates the Egypt-Israel relations in the specified aspects.